# Azərbaycanda sənaye dizaynının inkişaf mərhələləri

Əlbəttə, həmin dövrdə Azərbaycanda sənayenin inkişafını əsasən neft sənayesi təşkil edirdi. Bu inkişaf prosesinə təşkilati yanaşma kimi, 1894-cü ildə neft sənayeçilərinin Peterburqda keçirilən müşavirəsində hökumətin yaxından köməkliyi ilə "Bakı ağ neft zavodu sahiblərinin ittifaqı"nın əsası qoyuldu. Bu ittifaq Bakı ağ neft sahiblərinin 90%-ni, irili-xırdalı 92 şirkət və cəmiyyəti birləşdirirdi [2, s.146].

Artıq, 1901-ci ildə Bakıda 39 səhmdar şirkəti işləyirdi ki, istehsal edilən bütün neftin 70,5%-i onların payına düşürdü [2, s.140]. Təbii ki, sənayenin bu inkişafı da, Qərbi Avropada olduğu kimi, Azərbaycanda da sənaye dizaynının formalaşması və inkişafına müəyyən zəmin yaradırdı. Eyni zamanda həmin dövrlərdə respublikada ticarət əlaqələri də inkişaf edirdi. Bu da onunla xarakterizə edilir ki, həmin dövr, yəni XIX əsrin 80-ci illərindən Bakıdan Avropanın və Asiyanın müxtəlif ölkələrinə ixrac edilən neft məhsullarının sürətlə çoxalması, həmin ölkələrlə qarşılıqlı ticarətin inkişaf etməsinə səbəb oldu. Mənbələrdə, 1897-ci ildə Bakıda müxtəlif ticarət fəaliyyəti, o cümlədən neft ticarəti ilə məşğul olan ticarət evlərindən aşağıdakıların adları çəkilir. L.Nobel - mexaniki mallarla, "Q.List və K0"-maşın və maşın hissələri ilə, "Svet"- elektrik ləvazimatları ticarəti ilə məşğul idi. 1899-ci ildə isə artıq, Bakıda 38 ticarət evi fəaliyyət göstərirdi. Bunlardan böyük əksəriyyəti neft və müxtəlif ticarət fəaliyyəti ilə məşğul idilər [2, s.135]. 1897-ci ildə "Qafqaz lifli cisimlərin emalı" Səhmdar Şirkəti təsis edildi. Əsas kapitalı 2 milyon manatdan ibarət olan həmin şirkət pambıq-parça istehsalını və satışını nəzərdə tuturdu [2, s.141].

*XIX əsrin sonu, XX əsrin əvvələri Qərbi Avropada sənayenin inkişafı tədricən Azərbaycana da sirayət edirdi. Bu o dövr idi ki, artıq Azərbaycanın ictimai-mədəni və siyasi həyatında ciddi dəyişikliklər baş verirdi. Qərbi Avropa ölkələri və Rusiyadan Azərbaycana müxtəlif sənət adamlarının, sərmayədarların gəlməsi, ölkədə mədəni həyatın səviyyəsinin yüksəldilməsi ilə yanaşı, sənayenin inkişafına da təsir göstərirdi.*

Beləliklə, XX əsrin əvvəlləri Azərbaycanda sənayenin, xüsusilə neft sənayesinin inkişafı sənaye dizaynının formalaşmasında əhəmiyyətli rol oynadı. Bununla yanaşı ölkəyə sərmayə qoyulmasının artırılması, "Nobel qardaşları", "Şel", "Standart oyl" şirkətləri tərəfindən Azərbaycana istehsal texnologiyalarının gətirilməsinə səbəb oldu ki, bu da sənayeni inkişaf etdirərək, istehsal prosesində məmulatların yaradılmasına şərait yaradırdı. Bütün bu proseslərin aparıcı qüvvəsi kimi kadr hazırlığı məsələsi də diqqətdə idi. Bununla əlaqədar olaraq görkəmli alim, maarifçi və ictimai xadim Həsən bəy Zərdabi 1899-1900-cu illərdə "Kaspiy" qəzetində dərc etdirdiyi məqalələrində bədii sənaye sahəsində peşə məktəbləri və muzeylərin yaradılması zərurətini təhlil etmişdir.

Artıq, 20-ci illərdə Bakıda bir sıra incəsənət ocaqları, o cümlədən Rəssamlıq məktəbi, Plakat emalatxanası, Dövlət muzeyi, qədim incəsənət və maddi-mədəniyyət abidələrini öyrənən cəmiyyət və s. təsis olundu [1, s. 251]

1920-1930-cu illərdə Bakıda Vxutemasın (Ali bədii texniki emalatxanaları) məzunları M.Əfəndi, Ş.Telingater, R. Mustafayev və S.Yefimenko fəaliyyətə başlayırlar. Bununla belə bu dövr dizayn yaradıcılığı ümumittifaq səviyyəli sərgilərin təşkili ilə daha əlaqədardır. Bu sahədə bədii tərtibatın ustaları R.Mustafayev, Z.Kərimova, N.Fətullayev və I.Axundov fəaliyyət göstərirlər. Azərbaycanda sərgi pavilyonu sənətinin ən yüksək nailiyyəti 1939-cu ildə Moskvada Ümumittifaq kənd təsərrüfatı sərgisində tikilmiş Azərbaycan Respublikasının pavilyonu olmuşdur. Memarlar S.Dadaşov və M.Hüseynov ornamentçi-rəssam L.Kərimov tərəfindən yaradılmış bu pavilyon 1930-cu illərin sovet memarlıq üslubunun əsas xüsusiyyətlərini özündə cəmləşdirirdi [3, s.40]. Pavilyonun interyerinin tərtibatında şəbəkə nümunələrindən də geniş istifadə edilmişdir.

Hələ, XIX əsrin ikinci yarısından Azərbaycanın müxtəlif bölgələrində fərdi sənətkarlığın timsalında zərgərlik də inkişaf edirdi. Müxtəlif bəzək məmulatlarının dizaynı, həm estetik, eyni zamanda iqtisadi dəyərlə ölçülə bilən bu əşyaları realizə etmək imkanı verir-

di.

Mənbələrdə, Qarabağda-Şuşada 1860-cı ildə 81 zərgərin, 1902-ci ildə isə 56 zərgərin fəaliyyət göstərdiyi bildirilir [ 4, s. 200] .

20-ci illərdə respubilikada zərgərlik sənəti daha da təkmilləşdirilir, onun bədii-estetik xususiyyətləri zənginləşdirilirdi. Bu dövrün zərgərlik məmulatları əhalinin maddi-mənəvi ehtiyaclarını ödəməklə yanaşı, eləcə də respubilikanı ümumittifaq miqyasında təmsil edirdi.

Oktyabr İnqilabının 5-ci ildönümü münasibəti ilə Bakı neftçilərinin nümayəndələri tərəfindən V.İ.Leninə hədiyyə edilən gümüş yazı qabı (1922), Azərbaycanda Sovet Hakimiyyətinin qurulmasının 15 illiyinə həsr edilmiş albomun zərif qovluğu (1935) buna misal ola bilər[1, s.70]

Əlbəttə quruluş və zaman dəyişsə də sənətkarlıq nümunəsi özünün bədii-texnoloji və estetik xüsusiyyətlərini saxlayaraq yaradıldığı dövrün maddi-mənəvi dəyəri hesab edilir və həmin dövrün sənətkarlıq səviyyəsini, bədii-estetik dünyagörüşünü özündə təcəssüm etdirir.

XX əsrin əvvəlləri Azərbaycanda yüngül sənaye də inkişaf edirdi. Bu dövrdə Bakıda bir neçə emalatxana karton və qutuların hazırlanması ilə məşğul idi. Əhalinin artması ilə əlaqədar geyim və ayaqqabı istehsalı da artırdı. 1903-cü ildə Bakıda 500-ə yaxın müəssisə ayaqqabı və paltar istehsalı ilə məşğul idi. 1900-1903-cü illərdə Bakıda 16 nəşriyyat 300-350 işçi ilə fəaliyyət göstərirdi [3, s.77-78] .

Reklam işinin yekunlaşdırıcı mərhələsi XIX əsrin ikinci yarısında Qərbi Avropa ölkələrində baş vermişdir. Elə bu dövrlərdə Böyük Britaniyada "Daily Mail" reklam qəzeti nəşr edilməyə başlamışdır. Göründüyü kimi, sənaye dizaynı, özünün tərkib hissəsi olan reklam dizaynının formalaşması və inkişafı üçün bir növ baza olmuşdur. Beləliklə, sənaye dizaynının inkişafı ilə yanaşı, eyni zamanda reklam işi formalaşdırılaraq inkişaf etdirilirdi.

Azərbaycanda reklam işi 20-ci illərin əvvəllərində Rusiya Teleqraf Agentliyinin Bakı filialı nəzdində təşkil etdiyi Plakat emalatxanasında başlayaraq inkişaf etmişdir. 30-cu illərdə Azərbaycan rəssamlarının plakat əsərlərində sosializm quruculuğunun nailiyyətlərini əks etdirən mövzular geniş yer tuturdu. O zaman kənd təsərrüfatı ilə yanaşı, sənaye sahəsində də bir sıra plakatlar meydana çıxmışdır [ 1, s. 251-259] .

20-ci illərdə dizayn yaradıcılığının tərkib hissəsi kimi inkişafda olan istiqamətlərdən biri də tekstil və xalça dizaynıdır. Dekorativ-tətbiqi sənət növlərinə aid edilən bu sahə Azərbaycanda çox qədim dövrlərdən mövcud olmuşdur.

Lakin, 20-ci illərdən etibarən parça və xalçaçılığın istehsalı, artıq texnoloji cəhətdən daha da təkmilləşdirilmiş iş prosesinə əsaslanırdı. Bakıda, Şəkidə, Gəncədə, Basqalda basma üsulu ilə parçalar, kəlağayılar buraxan artellər fəaliyyət göstərirdi. Şəkidə ipək kombinatının istehsal etdiyi parçaların dekorativ tərtibatında ənənəvi milli naxışlar geniş tətbiq olunurdu.

1927-ci ildə təşkil edilən "Azsənətbirliyi"-nə "Azərxalçaçı birliyi" ittifaqı daxil idi. Həmin təşkilat respublikanın rayonlarında xalça istehsalını kooperativləşdirir, bu sahədə mütərəqqi üsullara geniş yer verirdi. Xalçaçılar lazımi xammal və yeni avadanlıqla, texniki rəsmlərlə təchiz olunurdular. Bütün bu tədbirlər sayəsində xalça sənətinin ənənəvi təsir vasitələri zənginləşdirilirdi [1, s.268] .

Azərbaycanda, XX əsrin əvvəlarindən sənaye dizaynının tərkib hissəsi kimi, inkişafda olan xalçaçılığın tədqiqi ayrıca mövzunun materialıdır və bu sahədə səy və təşəbbüslərimizin reallaşdırılması nəzərdə tutulmuşdur.

Beləliklə, 1920-40-cı illər Azərbaycanın ictimai-mədəni həyatında, sənaye sahəsində xüsusi diqqət çəkən dəyişikliklərin baş verməsi müşahidə edilir ki, bu da, təbii olaraq gələcək Azərbaycan incəsənətinin, o cümlədən sənaye incəsənətinin inkişafına zəmin yaratmışdır.

**İmaş HACIYEV,**
**sənətşünaslıq namizədi, dosent,**
**Azərbaycan Rəssamlar İttifaqının üzvü**

***P.S. Jurnalın 2006-cı il tarixli 5(183)-ci nömrəsində müəllifin dərc olunmuş "Azərbaycanda dizayn təhsili: tarixi inkişaf mərhələləri, mövcud vəziyyət və perspektivlər" adlı məqaləsində, səhifə 40-da getmiş AMEA Memarlıq və İnşaat İnstitutu sözləri AMEA Memarlıq və İncəsənət İnstitutu kimi oxunmalıdır.***

**Ədəbiyyat**

1. Kərimov K. Əfəndiyev R. Rzayev H. Həbibov N. Azərbaycan İncəsənəti. Bakı, İşıq - 1992.
2. Musayev M.Ə. XIX əsrin sonlarında Bakı şəhərinin ticarəti: (1883-1900-cü illər). Bakı, "Elm", 1972.
3. Salamzadə Ə. Dizayn və informasiya. Bakı, 2006.
4. Ахундова Г. О ремесленном производстве Карабаха. Баку, 2005.